**UOT 930.25.**

**Azadə Kamil qızı Nəzirova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**E-mail: nezerovk76@gmail.com**

# ARXİV SƏNƏDLƏRİNDƏ QARABAĞ XANLIĞININ XVIII ƏSRİN II YARISINDA XARİCİ SİYASƏTİ

**Xülasə:** Qarabağ xanlığının XVIII-XIX əsr tarixi ilə əlaqədar Azərbaycan Respublikası Milli Tarix Arxivində, eləcə də, Osmanlı mənbələrinə əsaslanan arxiv materialları dövrün beynəlxalq xarakteristikasını təhlil etməkdə vasitəçi rol oynayır. Osmanlı arxiv mənbələrindən məlum olur ki, XVIII əsrin II yarısından birləşdirmə siyasəti aparan xanlıq qonşu dövlətlərin işğalçı yürüşlərinə məruz qalmışdı. Digər tərəfdən ərazisində məskunlaşan xristian məlikliklərinin separatçılıq fəaliyyətinə baxmayaraq öz daxili müstəqilliyini qoruyub saxlamışdı.

**Açar sözlər:** Qarabağ, Pənahəli xan, İbrahimxəlil xan, xarici siyasət, Osmanlı imperiyası, Rusiya

Arxiv sənədləri bütünlükdə tariximizi öyrənməkdə əsas sənədli mənbələrdir. Müasir dövrümüz üçün aktual olan mövzuların, xüsusilə də xanlıqlar dövrünün sənədlər əsasında araşdırılmasının nə qədər əhəmiyyətli olduğunu qeyd etməliyik. Bildiyimiz kimi, XVIII əsrin ortalarından etibarən Azərbaycanda müstəqil və yarımüstəqil xanlıqların mövcud olması vahid dövlətin yaranmasına və bölgələr arasında sosial-iqtisadi münasibətlərin formalaşmasına mane olurdu. Bəhs edilən dövrün xarakteristikası dövlət arxiv sənədləri ilə bərabər, qonşu dövlətlərin arxivlərində saxlanılan materiallar əsasında tədqiq edilmişdir.

Xüsusilə də, başlıca tədqiqat obyektimiz olan Qarabağ xanlığının xarici siyasətinin öyrənilməsində arxiv sənədlərinin əhəmiyyəti böyükdür. Xanlığın digər dövlətlərlə diplomatik münasibətlərini əks etdirən sənədlər, sadəcə dövlət arxivlərində deyil, Osmanlı, Rusiya arxivlərində də saxlanılır. Yarandığı ilk dövrdən etibarən müstəqil xarici siyasət yeridən xanlıq, Pənahəli xanın hakimiyyəti dövründə Şəki, Quba, Naxçıvan, İrəvan xanlıqları və qonşu dövlətlərlə əlaqələr yaratmışdı.

Azərbaycan Tarix Arxivində saxlanılan 24 saylı fondun (iş 55) 166-cı səhifəsinə istinad etsək, Qarabağ xanlığının idarəçiliyində Pənahəli xanın hakimiyyəti qeyri-məhdud olmuş, xarici siyasətdə başlıca vəzifəsi isə qonşu xanlıqları birləşdirmək olmuşdu [1.1,166].

Pənahəli xanın birləşdirmə siyasəti digər xanlıqlarla bərabər, daxildəki xəmsə (beşlik) xristian məlikliklərini də narazı salmış və onaların təhriki ilə Şəki xanı Hacı Çələbi 1748-ci ildə xanlığa yürüş etmişdi.

Pənaləli xan (1747-1763) Qarabağ xanlığında öz hakimiyyətini möhkəmləndirməklə yanaşı, digər xanlıqlara da təsirini yaymağa çalışmışdı. Pənahəli xan 1757-ci ildə Gilandan, Mazandarandan, Astrabaddan 30 minlik qoşunla Qarabağa

yürüş edən Məhəmmədhəsən xanı məğlub etmişdi. Məhəmmədhəsən xanın ölümündən sonra Urmiyalı Fətəli xan Əfşar yenidən müstəqilliyini elan etdi və öz hakimiyyətini Azərbaycanın şimal xanlıqlarına da yaymağı qərara aldı. Xanlıq üçün növbəti təhlükəli vəziyyət yarandı. İlk növbədə diplomatik əlaqələr yaratmaq üçün Qarabağa elçilər göndərdi, amma Pənahəli xan tabe olmaqdan imtina etdi. 30 minlik qoşunla, eləcə də Çiləbörd və Talış məliklərinin qüvvələri ilə birlikdə Şuşa yaxınlığında düşərgə saldı. Urmiyalı Fətəli xanın yürüşü barədə sənədli materiallarda məlumatlar fərqlidir. Bu yürüşün nəticəsi olaraq qeyd etməliyik ki, Pənahəli xanın oğlu İbrahimxəlil xan girov olaraq Urmiyaya göndərilmişdi. Bundan sonra hər iki xanlıq arasında diplomatik danışıqlar aparılmış, dostluq və sadiqlik haqqında müqavilə imzlanmışdı.

Vəziyyətin kifayət qədər mürəkkəb olmasına baxmayaraq, Osmanlı imperiyası Azərbaycan xanlıqları ilə əlaqələrini davam etdirirdi. Qarabağ hökmdarı İbrahimxəlil xanın (1763-1806) 1794-1795-ci illərdə Osmanlı sultanına göndərdiyi məktubda, İranda hakimiyyəti ələ keçirmiş Ağa Məhəmməd xan Qacarın İraqın və fars torpaqlarının bir çoxunu ələ keçirməsini və əsas məqsədinin Gürcüstan və Azərbaycan torpaqlarını işğal etmək olduğu barədə xəbər vermişdi. İbrahimxəlil xanın bu məktubu sədr-əzəm tərəfindən Osmanlı sarayına göndərilmişdi [5, 95].

Qeyd etmək lazımdır ki,1795-ci ilə məxsus İbrahimxəlil xanın məktubunda xanlığa hərbi yardım və Osmanlı məmləkətinə keçəcək mühacirlərin qəbulu üçün sərhəd valilərinə əmrlər verilməsi haqqında məlumat verilmişdi. Xanın tələbi ilə Abdulla Çələbi səfir olaraq xanlığın Osmanlı dövləti ilə beynəlxalq əlaqələrdə iştirak etmişdi [2, 48].

Lakin Osmanlı arxiv sənədlərindən də məlum olur ki, işğalçı hücumlara qarşı Osmanlı dövləti xanlıqlara yardım göstərə bilmirdi. Bunun əsas səbəbi 1787-1791-ci illər Rus-Osmanlı müharibəsində Osmanlı məğlub edilmiş və mərkəzi hakimiyyət zəifləmişdi, bununla da əgər Osmanlı Qacarlar dövləti ilə yenidən müharibə aparsa məğlub olacağı məlum idi. Digər tərəfdən isə Osmanlı dövləti Rusiyanın Qacarlar dövləti ilə Cənubi Qafqazda müharibə aparmasından istifadə edib itirilmiş mövqeyini bərpa etməyə ümid edirdi.

Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza yürüşlərində Qarabağ xanlığı 1797-ci ildə Sankt-Peterburqa Rusiyanın himayəsinə keçmək barədə Mirzə Məhəmmədin səfirliyi ilə nümayəndə göndərmişdi. Bu münasibətlərdə əsas məqsəd əslində xanlığı İranın yürüşlərindən qorumaqla bərabər, Rusiyanın işğalçı hücumlarının da qarşısını almaq idi.

1781-ci il 18 dekabr tarixli sənəddə İbrahimxəlil xanın Quba xanı Fətəli xan və Xoylu Əhməd xan ilə münaqişəsi olmasından, eyni zamanda Əhməd xanın Urmiya xanlığı ilə ittifaq yaratmasından, həmçinin Fətəli xanın Qarabağa yeni yürüş təşklil edilməsi barədə məlumatlar əks edilmişdir. İbrahimxəlil xan xarici siyasət əlaqələrində "nikah diplomatiyası"ndan da istifadə edərək xanlığın daxili və xarici müstəqilliyini qoruyurdu [5. 111].

6/203 nömrəli sənədə əsaslanaraq qeyd etməliyik ki, gürcü çarı II İraklinin Osmanlı dövlətinə göndərdiyi məktubda Ərdəbil, Sərab, Qarabağ xanlıqlarının və Təbriz şəhərinin ələ keçirilməsindən bəhs edilir. Bəhs olunan dövrdə Qarabağ və gürcü çarlığı münasibətlərinin kəskinləşməsinin başlıca səbəblərindən biri xristian məliklərinin separatçılıq fəaliyyəti idi.

Azərbaycan Taixi Arxiv sənədlərindən məlum olur ki, (3/79) İbrahimxəlil xan II İrakli ilə müharibəyə hazır idi və II İraklinin Gəncəyə yürüş etməsi, Car-Balakən hakiminin İbrahimxəlil xana yardımı haqqında məlumatlar verilmişdi (17/739) [2. 40].

II İrakli və İbrahimxəlil xan arasında münaqişələrin kəskinləşməsinin əsas səbəblərindən biri İbrahimxəlil xanın Naxçıvan və İrəvanı birləşdirmək istəyi idi. Qarabağ xanlığının birləşdirmə siyasəti Rusiyanın da Cənubi Qazfqazdakı işğalçılıq məqsədlərinə mane ola bilərdi. Buna görə də Qarabağın xristian məlikliklərinin təklifi ilə Rusiya və II İraklinin qüvvələri 1787-ci ildə Qarabağa hücum etdilər. Buna baxmayaraq İbrahimxəlil xanın qüvvələri Naxçıvana yürüş edib Naxçıvan qalasını ələ keçirdilər [4, 172].

Xanlığın XVIII əsr xarici siyasətində İngiltərə, Fransa diplomatiyasını da qeyd etməliyik. Rusiyanın Cənubi Qafqazda işğalçı siyasətinə qarşı çıxan bu dövlətlər xanlıqlarla əlaqələr yaratmaqla bərabər, istər Osmanlı, istərsə də İranı Rusiya ilə müharibəyə təhrik edirdilər. Osmanlının Rusiya ilə müharibədə məğlub olması və Yassı (1791) sülhünün imzalanması, Fransada burjua inqilabının baş verməsi, Polşanın parçalanması, İranın Cənubi Qafqaza yürüşləri Rusiya hökumətini narahat edirdi. II Yekaterinanın xarici siyasətində məhz bu dövrdə əsas istiqamət Zaqazqaziyaya yürüş təşkil etməsi oldu. 1796-cı ildə Zaqafqaziya hökmdarlarının tələbi ilə, eləcə də, burada İran təsirlərinin qarşısını almaq üçün rus qoşunları Azərbaycana yürüş etdi. II Yekaterinanın "Manifestinə" uyğun olaraq yerli əhali ilə rəğbətlə davranmaq və dağıntıların qarşısını almaq tələb edilirdi. Bu dövrdə Azərbaycan xanlarının Rusiya ilə münasibətləri ardıcıl xarakter daşıyır, yalnız bir məqsədə – Rusiya himayəsinə keçməyə yönəlmişdi. Çar Rusiyasının siyasi sənədlərində bu yürüşlər himayədarlıq olaraq göstərilsə də, əsas məqsəd Şimali Azərbaycan torpaqlarını işğal etmək idi. Belə ki, V.Zubovun rəsmi məsləhətçisi təyin edilmiş erməni arxiyepiskopu İ.Arqutinski Qarabağ məliklərinə göndərdiyi məktubda bildirirdi ki, rus qoşunlarının yürüşlərinin başlıca məqsədi "erməniləri müsəlmanlardan azad etmək və erməni dövləti yaratmaqdır". Sənədli mənbələrə əsasən məlum olur ki, bəhs olunan dövrdə İ.Arqutinski hələ 1793-cü ildə hazırladığı erməni-rus müqaviləsinin layihəsini çar hökumətinə təqdim etmişdi [6, 48].

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin 73 nömrəli fondunun birinci siyahısında qeyd olunur ki, 1801-ci il çar Aleksandrın Kartli-Kaxetiyanı birləşdirilməsi və ardınca Qazax, Şəmsəddil, Borçalı ərazilərini tabe etməsi ilə Azərbaycanın şimal torpaqlarının işğalı Rusiya tərəfindən başlanılmış oldu və Qarabağ xanlığının xarici siyasəti XVIII əsrdən fərqli olaraq XIX əsrin əvvəllərində Rusiya ilə diplomatik əlaqələrə üstünlük verirdi [1. 3,1].

1747-ci ildə yaranmış xanlıq, 1822-ci ildə Çar Rusiyası tərəfindən xanlıq idarə üsulu ləğv edilmişdir. Xanlığın XVIII-XIX əsrin əvvəlləri tarixinə diqqət yetirdikdə, Qarabağın strateji mövqeyi həm qonşu xanlıqlar, həm də Rusiya və Osmanlının, İranın yürüşlərinə məruz qadığını görə bilərik. Məhz bu dövrlər tarixinin araşdırılmasında arxiv mənbələri əsas istiqamətləndirici vasitədir. Bu gün Milli Tarix Arxivində, eləcə də, AMEA Tarix və Etnologiya İnstitutunun arxivində saxlanılan mənbələr bizə həmin dövrün daha dəqiq və ətraflı araşdırılmasına kömək edir.

Ümumiyyətlə, XVIII əsrin II yarısı Azərbaycan tarixi olduqca mürəkkəb və qarışıqlıq dövründən keçmişdir. Xanlıqlararası müharibələr, dövlətlərin işğalçı yürüşləri həmin dövrə məxsus dəyərli sənədlərin əksəriyyətinin ölkədən aparılmasına səbəb olmuşdur. Müstəqillik dövrümüzdə tədqiqatçıların fəaliyyətləri nəticəsində həmin sənədlərin bir çoxu milli arxivlərimizə gətirilmişdir. Milli Tarix Arxivində saxlanılan 24 və 73 saylı fondlardakı sənədlərdə Çar Rusiyasının xanlıq tarixindəki işğalçı yürüşlərini qeyd etməliyik. Qarabağ xanlığı tarixinə məxsus sənədlər, xanlığın xarici siyasətinin çoxtərəfli olduğunun bariz sübutudur. Osmanlı dövlətinin Arxiv İdarəsinin nəşri olan arxiv səndələrində Qarabağ mənbəsi, eləcə də Osmanlı dövləti ilə Azərbaycan xanlıqları arasındakı münasibətlərə dair arxiv bəlgələri, həmçinin dünya arxivlərində saxlanılan mənbələrin çoxu Qarabağın çoxtərəfli diplomatik əlaqələrindən, işğalçı dövlətlərin Qarabağdakı strateji mövqelərindən bəhs edilməklə bərabər, sənəd materialları əsasında ərazinin tarixini daha dəqiq araşdırmağımızda vasitəçi rol oynayır.

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi
 1.1.Fond 24. İş 143
 1.2.Fond 24, siyahı 1, səh.166
 1.3.Fond 73. İş 1 (1829-1845-ci illərə məxsus sənəd)
2. Azərbaycan tarixi arxiv sənədlərində, XVIII-XX əsrin əvvəlləri, I cild, Bakı: Çaşıoğlu, 2010, 508 s.
3. Hacıyeva Z. Qarabağ xanlığının sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı, 2007, 254 s.
4. Osmanlı sənədlərində Qarabağ (Arxiv materialları əsasında), Bakı, Şərq-Qərb, 2021, 615 s.
5. Osmanlı devleti ile Azerbaycan hanlıkları arasında münasibetlere dair arşiv belgeleri, Ankara,1993, 488s.

М.Мустафаев. "Северные ханства Азербайджана и Россия" (XVIII- XIX) Баку, Елм, 1989, 128 s.

**Azade Kamil Nazirova**

## THE FOREIGN POLICY OF THE KARABAKH KHANATE IN THE SECOND HALF OF THE 1st CENTURY IN ARCHIVE DOCUMENTS

**Summary**: Regarding the history of the Karabakh Khanate in the 18th-19th centuries, the documentary materials stored in the National Historical Archive of the Republic of Azerbaijan, as well as in the Ottoman archives, play a mediating role in analyzing the international characteristics of the period. It is known from the Ottoman archival sources that in the second half of the 18th century, the khanate, which pursued a policy of unification, was subjected to the invasions of neighboring states.

**Keywords:** Karabakh khanate, Panahali khan, İbrahımkhalil khan, foreign policy, Ottoman empire, Russia.

**Азаде Камиль Назирова**

## ВНЕШНЯЯ ПОЛИТИКА КАРАБАХСКОГО ХАНСТВА ВО ВТОРОЙ ПОЛОВИНЕ XVIII ВЕКА В АРХИВНЫХ ДОКУМЕНТАХ

**Резюме:** Архивные материалы, хранящиеся в Национальном Историческом архиве Азербайджанской Республики, а также документы, имеющиеся в османских архивах, играют значительную роль при анализе международных особенностей XVIII-XIX веков. Из османских архивных источников известно, что во второй половине XVIII века Карабахское ханство, проводившее политику объединения, подвергалось нашествиям соседних государств. Несмотря на сепаратистскую деятельность христианских княжеств, поселившихся на его территории, оно сохранило свою внутреннюю независимость,

**Ключевые слова:** Карабахское ханство, Панахали-хан, Ибрагим Халил-хан, внешняя политика, Османская империя, Россия

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.06.2024**